Xalq qəzeti 2021.- 10 mart.- S.9.

***Qadın böyük qüvvədir! Qadın Allahın cəmiyyətə bəxş etdiyi müqəddəs varlıq, ana, bacı, həyat yoldaşı, dost, silahdaşdır. Qadın gözəllik simvolu, zəriflik təcəssümü, əsrarəngiz bir yaradılış nümunəsidir. Peyğəmbərimizin (s.) mübarək kəlamlarında buyrulduğu kimi, "Cənnət anaların ayaqları altındadır". O anaların ki, özlərində qadın zərifliyini, nəcibliyini birləşdirib. Lakin bütün bunlarla yanaşı, cəmiyyətdə xanımlarla əlaqəli ürəyə toxunan hallar da az deyil. Bəs zərif nümayəndələrimizin hüquq və azadlıqları, onlara verilən haqlar hansı məqamda və necə əksini tapır. Müsahibimiz Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini, professor Jalə Əliyevadır.***

# Azərbaycan qadınının səsi zirvələrdən gəlir

***– Jalə xanım, istərdim ilk sualımıza qadın gücündən başlayaq. Sizcə, güclü qadınlar kimlərdir? Bir qadının öz ayaqları üzərində dayanmağı bacarması üzərində ailənin və cəmiyyətin təsiri nə qədərdir?***

– Güclü qadın özünü müdafiə etməyi bacaran, sözünü deməyi bacaran, təhsili olan, müstəqil şəkildə öz həyatını təmin edə bilənlərdir. Eyni zamanda, yaxın insanlarına dəstək ola bilən, öz istəkləri, hədəfləri uğrunda mübarizə aparmağı bacaran, qarşısına çıxan və çıxarılan maneələri dəf etmək gücündə olan və öz davranışı, keçdiyi həyat yolu ilə nümunəyə çevrilən qadınlardır. Yəni güclü qadın anlayışı çox ifadələri, mənaları özündə ehtiva edir. Cəmiyyətdə belə bir oturuşmuş fikir var ki, qadın zəifdi. Əsla belə deyil, məhz bu stereotipi dağıtmağı bacaran qadın zəif yox, sadəcə kişilərdən fərqli olaraq, daha zərif bir fizioloji varlıqdır. Biz bu gün, əlbəttə ki, bütün dünyada kişi-qadın, elmi adını almış gender bərabərliyindən danışırıq. Amma burada yanlışlığa yol verməmək olmaz, gender bərabərliyi demək heç də qadını kişiləşdirmək və yaxud kişini də daha zəif bir şəkildə cəmiyyətə təqdim etmək anlamına gəlmir. Yaradılışdan bəri istər hadisələrə baxış bucağı, istərsə də duyğular baxımından qadınla kişinin hər birinin cəmiyyətdə öz vəzifələri, təbiətdən irəli gələn funksiyaları olub. İdarəetmə baxımından, əlbəttə ki, qadınla kişinin arasında müəyyən mənada hər zaman fərq olub. Amma elə yerlər var ki, qadın kişidən daha çox güclü olduğunu isbat edə bilib. Məsələn, bizim tariximizdə Azərbaycan qadını qəhrəman bir qadın obrazı da yarada bilib. Sadəcə ailəsinin qadını deyil, eyni zamanda, lazım gələrsə, öz həyat yoldaşı ilə hətta düşmənə qarşı döyüşmək, söz demək imkanı olan qadın kimi də tarixdə qalıb.

***– Bəs çağdaş dövrümüzdə qadınlar öz hüquqlarını nə dərəcədə bilirlər və ya nələri bilmədiklər?***

– Bununla bağlı dövlət çox mütərəqqi addımlar atıb. İllərdən bəri, artıq son onilliklər ərzində cəmiyyətdə qadının rolunun inkişaf etdirilməsi, gücləndirilməsi istiqamətində dövlət siyasəti həyata keçirilir. Bu siyasətin təməli Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və məhz onun siyasəti nəticəsində Azərbaycan qadını cəmiyyətdə çox əhəmiyyətli bir yerdə qərar tutub. Cəmiyyətdə, idarəetmədə qadının rolunun artırılması üçün davamlı olaraq çox böyük layihələr hazırlanıb, həyata keçirilib. Bu gün də bu siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurlu bir şəkildə davam etdirilir. Qadınların rolu durmadan cəmiyyətimizdə yüksəlir. Biz bu günlərdə gender bərabərliyinin qüvvəyə minməsinin 15 illiyini artıq qeyd edirik. Milli Məclisdə mənim sədr müavini olduğum komitədə böyük bir dinləmə, toplantı keçirildi. Nəticə ondan ibarətdir ki, həqiqətən də çox nəhəng, möhtəşəm addımlar atılıb, dövlət siyasəti olaraq.

Lakin görünən odur ki, bu gün də əgər biz hansısa çətinlikdən, problemdən danışırıqsa, deməli, hələ də həllini gözləyən məsələlər var. Bu məsələlərin həlli bizim öz əlimizdədir. Hər birimiz öz içimizdən başlayaraq bu dəyişikliyə, bu günə qədər mövcud olan oturuşmuş düşüncələri stereotipləri qıraraq, yox edərək yeni insan formalaşdırmaq yolunda müsbət addımlar ata bilərik. Eyni zamanda, problemlər də böyük ölçüdə azalar və yox olar. Bunun bir yolu da qadınlarımızın öz hüquqlarını bilməyindən ibarətdir. Qadınlarımız öz hüquqları uğrunda mübarizə aparmağı bacarmalıdır. Bəzən qadın öz potensialından istifadə etməyi bacarmır və ya istifadə etmək istəmir. Əgər istəyərsə, ondan çox müvəffəqiyyətli, fəal bir idarəedici alına bilər. Yaxşı bir sahənin mütəxəssisi alına bilər. Amma bəzən qadın özü-özünü ikinci plana çəkir. Bunu da unutmamalıyıq. Yəni hər zaman cəmiyyətdə sadəcə kişilərdə günah görmək olmaz. Bu, birmənalı yanaşma olar. Çünki bu gün müsbət xarakterli Azərbaycan kişisi qadının inkişafında heç bir əngəl görmür və tam əksinə qadınlarımızın bütün sahələrdə inkişaf etməsi və öz sözünü deməsi üçün kişilərimiz də köməkçi olurlar. Bu əlbəttə ki, əhəmiyyətli bir məqamdır. Ona görə də, təbii ki, cəmiyyət heç bir şeydən sığortalanmayıb, cəmiyyətdə çox müxtəlif təbəqələr, müxtəlif ailələr var və bəzən təəssüflər olsun ki, ailələrdə qadınların hüquqlarının pozulduğunu görürük. Xüsusilə ucqarlarda, kənd yerlərində və belə olan halda bizim qadınımız özü- özünü müdafiə etməyi bacarmalıdır. Bunun isə yolu, əlbəttə ki, hüquqları bilməkdən keçir.



Bu sahədə mediaya üzərinə də böyük vəzifələr düşür. Mətbuat, televiziya bu sahədə maarifləndirməni gücləndirməlidir.

***– Jalə xanım, nə etməliyik ki, xanımlarımız təkcə ana deyil, eləcə də ictimaiyyətdə öz sözünü deyə bilən, böyük uğurlara imza ata bilən bir fərd olsunlar.***

– Bilirsiniz, xoşbəxt qadın obrazını qadın özü yaratmır. O obrazı onun artıq ətrafında toplanan fikirlər, fəaliyyəti, ictimai rəy yaratmış olur.

XXI əsr Azərbaycan qadın obrazı haqqında danışırıqsa, biz burada əlbəttə ki, ölkənin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mütləq adını çəkməliyik və bu adı qızıl hərflərlə yazmalıyıq. Mehriban xanım Əliyevanın adı və soyadı bütün dünyada bu gün Azərbaycan qadınının simvoludur. Və sadəcə Azərbaycan qadınının deyil, ümumiyyətlə, bir qadının müvəffəqiyyət, zəriflik, gözəllik mərhəmət düsturudur. Eləcə də XX əsrdə adı çəkilməyə layiq olan çox sayda bizim ictimai xadim, alim qadınlarımız olublar. Onların da hər biri öz sahəsində sözlərini deyib və zaman- zaman hələ ötən əsrin əvvəllərindən Azərbaycan qadınının adını dünyaya tanıda biliblər. ICESCO-nun 2021-ci il "Qadın ili" çərçivəsində keçirilən "Qadınlar və qızlar elmdə" beynəlxalq günü münasibətilə təşkil edilən konfransda çıxış edən və artıq dünyada bir Azərbaycan qadını simvolikasına çevrilən mükəmməl bir obraz yaratmış olan xanım Mehriban Əliyevanın fikirlərini səsləndirmək istəyərdim. Deyir ki, "mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə bir əsrdən öncə sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı, müsəlman dünyasında ilk demokratik Respublikanın yaranmasına görə tanınan ölkədənəm, mən həm də Azərbaycan 1918- ci ildə qadınlara seçmək və seçilmək hüququnun verildiyi ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür və mən bununla fəxr edirəm. Bəli əlbəttə ki, bu tariximizlə, adını tarixə yazan qadınlarımızla fəxr edirik. Bu gün Azərbaycan qadınına yaradılan şərait, bu sahədə həyata keçirilən dövlət siyasəti Azərbaycan qadınının daha böyük uğurlara imza atmasına daha böyük imkan yaradır. Və mən fürsətdən istifadə edərək müqəddəs şəhidlərimizi dünyaya gətirən, müqəddəs analarımızın qarşısında baş əyirəm. Onların əlindən öpürəm. Bu qadınlarımız qəhrəmandırlar".

***– Qadınlarımızın siyasi camiyədə təmsilçiliyini necə dəyərləndirirsiniz?***

– Bəli, Azərbaycan qadını çox fəaldır. Artıq hər kəs bilir ki, Azərbaycan qadının cəmiyyət həyatında siraət etmədiyi, nümayəndəsi olmadığı heç bir sahə yoxdur. Ən çətin peşədən tutmuş, belə deyək qadının adına, boyuna biçilmiş həkimlik, müəllimlikdən belə, yəni bilirik ki, bu sahədə statistika da onu göstərir ki, ölkədə ən çox müəllim sayı qadınlara aiddir. Daha sonra həkimlər və digər sahələr gəlir. Ən çətin sahələrdə, ağır sənaye, iqtisadiyyat sahəsində belə qadınlarımız öz töhfələrini verə bilirlər. Təbii ki, eyni zamanda, seçkili orqanlarda, siyasətdə, bələdiyyədə, parlamentdə Azərbaycan qadınının səsi getdikcə daha da yüksəklərdən gəlir və qadınlarımızın təmsilçilik hüququ getdikcə daha da artır. İcra orqanları haqqında da bunu deyə bilərik, yerli icra orqanları, icra qurumları, nazirliklər yəni bütün bu idarəetmə starukturunda qadınların olması, onların söz sahibinə çevrilməsi Azərbaycanda uğurlu qadın siyasətinin əhəmiyyətli bir töhfəsi kimi dəyərləndirilməlidir.

***Şahxanım ƏLİZADƏ,***
***"Xalq qəzeti"***